

Millət vəkili Qənirə Paşayeva İraq və Suriyada yaşayan türkmənlər adından Avropa Şurasına müraciət edib.

Bu gün AŞPA-da "İŞİD kimi tanınan terrorist qrupu tərəfindən insanlıq əleyhinə törədilən hədələr: “Xristianlara və başqa dini və ya etnik icmala qarşı zorakılıq" adlı məruzəçi Theodora Bakoyannisin hazırladığı məruzə ətrafında geniş müzakirələr keçirilib.

Müzakirədə çıxış edən millət vəkili Qənirə Paşayeva Assambleyadakı çıxışında deyib:” Suriyada davam edən böhran və terrorist qrupların, xüsusilə "İraq və Suriyada İslam Dövləti" adlanan qrupun peyda olması regiona və onun hüdudlarına ciddi təhlükə törədir. Zorakılıq heç bir sərhəd tanımır. Regionda yaşayan insanlar, istər yezidlər, türkmənlər, kürdlər, yaxud müsəlmanlar, xristianlar, dini inancından, etnik mənsubiyyətindən asılı olmayaraq zorakılığa məruz qalırlar. Onların hamısı eyni zülmün qurbanlarıdır. İkincisi, biz səylərimizi böhranın humanitar aspektlərində cəmləşdirməliyik. Belə ki, regional ölkələr humanitar fəlakətlə üzləşiblər. Türkiyə 1,5 milyon insana sığınacaq verib, onların da böyük əksəriyyəti uşaqlar və qadınlardır. Təqribən 250 min nəfər son iki həftədə sərhədi keçmişlər. Biz Türkiyənin bu istiqamətdə olan səylərini təqdir etməliyik. Assambleya bütün üzv dövlətlərə onların məsuliyyətini öz üzərlərinə götürməyi və baş vermiş faciəvi humanitar böhran yükünü paylaşmağa çağırmalıdır. Mən Assambleyamıza İraq və Suriyada yaşayan milyonlarla türkmənlərin, onların təmsilçilərinin xahişi ilə onların da düşüncələrini, səsini, yaşadıqları dəhşətləri sizə çatdırmaq və cağırış etmək istəyirəm. Əziyyət çəkən digər etnik və dini qrupların səsi,düşüncə və çağırırşları burada həmkarlarım tərəfindən səsləndirildi və məruzədə öz əksini tapır. Mən də türkmənlərin səsinin, cağırışının burada səslənməsini istəyir və sizə çatdırıram. 100-lərlə türkmən İŞİD tərəfindən qətl edilib, çoxlu sayda insan girov götürülüb, 10 minlərlə insan yaşadığı kəndin, bölgənin İŞİD-in əlinə keçməsindən sonra və ya bölgəsindəki dəhşətli vəziyyət üzündən evini tərk etmək, qaçmaq məcburiyyətində qalıb. Evini, sağlamlığını, işini itirən türkmənlərin sayı yüz minlərlərdir və türkmənlər Avropa Şurasını onlara dəstək olmağa, kömək göstərməyə çağırır. Çünki etnik kimliyindən və dini inancından asılı olamayaraq biz İŞİD zülmündən əziyyət çəkən hər kəsin səsini eşitməli və onlara öz dəstəyimizi göstərməliyik. Özəlliklə evini, işini itirmiş və qaçqın düşmüş insanlara daha çox humanitar dəstək göstərməyimizə böyük ehtiyac var. Üçüncüsü, regionda İŞID-lə və başqa terror qrupları ilə mübarizədə mənbə ölkələr və göndəriş ölkələri

müəyyən edilməli və döyüşçülərin münaqişə zonalarına səyahət etməsi dayandırılmalıdır. Bu ağır yükü tək Türkiyənin üzərinə qoymaq ədalətsizlik olardı. Hörmətli həmkarlar, son olaraq vurğulamaq istərdim ki, İslam sülh və barış dinidir. İslam heç vaxt zorakılığa izn vermir. Biz İŞİD təhlükəsi ilə üzləşmiş Avropa cəmiyyəti arasında islamofobiya təmayüllərinin mümkün artmasına diqqət yetirməliyik. Yadda saxlamalıyıq ki, islamofobiya təmayülləri yalnız bu kimi terrorist qrupların gələcəkdə çiçəklənməsi üçün məhsuldar zəmin yaradır. Ona görə də biz Avropada islamafobiyanın artmasına qarşı da ciddi mübarizə aparmalıyıq".